# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

## SƏRƏNCAM

**9 aprel 2026-cı il** **10-1/3-3-12/2026**

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə “Dövlətin və təsərrüfat subyektlərinin mənafelərinin müdaifəsində auditin rolu” mövzusunda konfransın keçirilməsi barədə**

Ulu Öndər Heydər Əliyev tərəfindən 1998-ci il 18 iyun tarixində təsdiq edilmiş “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı”na uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycanda İnsan Hüquqları Günü”nün elan edilməsi ilə bağlı ölkəmizdə həyata keçirilən tədbirlərə dəstək göstərilməsi ilə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə 2026-cı il 25 iyun tarixində “Dövlətin və təsərrüfat subyektlərinin mənafelərinin müdaifəsində auditin rolu” mövzusunda konfransın keçirilməsi məqsədilə **qərara alıram:**

1. “Dövlətin və təsərrüfat subyektlərinin mənafelərinin müdaifəsində auditin rolu” mövzusunda konfransın keçirilməsinə dair Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatasının icraçı direktoruna (S.Gülməmmədov) tapşırılsın ki, tədbirinin keçirilməsi ilə əlaqədar müvafiq tədbirlərin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi təmin edilsin.
3. Bu sərəncamın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**


Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/ryhlunZOdet9TRjEf4vu49x%2Biq8OLh2hpo6r%2FhlGip8%3D